BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2010

## ƏDƏBİYYATŞÜNASLIQ

# XAQANİ ŞİRVANİ FİZİKİ KAMİLLİK HAQQINDA

**MOBİL ASLANLI HUNTÜRK**
***Bakı Dövlət Universiteti***
***mobilaslanlirambler.ru***

*Məqalə dahi Azərbaycan şairi Xaqani Şirvaninin həyat və yaradıcılığında fiziki tərbiyə, fiziki kamillik və fiziki-cismani yetkinlik məsələlərinə həsr edilmişdir.*

*Müəllifin böyük ustadın milli idman oyunlarımızdan olan çovkan, habelə şahmat və nərddən bədii ifadə vasitəsi kimi geniş istifadə etməsinə, habelə turizm və səyahətlərə geniş yer ayırması xüsusi diqqət çəkir.*

Xalqımızın dünya ədəbiyyatında söz cahangirləri sırasına bəxş etdiyi ən nadir simalardan biri də Xaqani Şirvanidir. O, Azərbaycanda intibah dövrü ədəbiyyatının ilk qüdrətli nümayəndəsidir. Dahi Nizamiyə qədər tutarlı ideya-siyasi, ictimai-fəlsəfi və yüksək humanist məzmun gətirmiş şair, həm də Azərbaycan ədəbiyyatında ilk poemanın bünövrəsini qoymuşdur.

Dahi şairimizin zəngin yaradıcılığına diqqət yetirsək görərik ki, onun fəlsəfi baxışında, pedaqoji irsində, tibbi-bioloji araşdırmalarında fiziki tərbiyə məsələləri, xüsusilə insanın fiziki təkmilləşməsi, sağlamlıq motivləri, habelə oyun və əyləncələrə qədərincə yer ayrılmışdır.

Qeyd etməliyik ki, Şərqin böyük zəka sahiblərindən Əbdürrəhman Cami, Lütfibəy Azər, Rzaquluxan Hidayət, Məhəmməd Əli Tərbiyət, həmçinin Avropanın görkəmli ədəbiyyatşünasları və şərqşünasları N.V.Xanıkov, K.Q.Zaleman, A.Y.Krımski, Y.E.Bertels, A.H.Boldırev, Y.H.Marr, K.İ.Çaykin, O.Vilçevski, habelə Azərbaycan alimərindən Ə.Bakuvi, H.Z.Şirvani, A.Bakıxanov, F.Köçərli, M.Rəfili, H.Araslı, M.Sultanov, Q.Kəndli, Ə.Cəfər, M.Quluzadə, Ə.Səfərli, X.Yusifov və b. Xaqani yaradıcılığının bu və ya digər sahələrini geniş tədqiq edib araşdırsalar da, şairin fiziki tərbiyə, fiziki kamillik məsələləri ilə bağlı mövcud fikir və mülahizələrinə toxunmamışlar.

Əsərlərində cismani möhkəmliyə, fiziki inkişafa, fiziki və mənəvi sağlamlığa mühüm yer ayıran şair, böyük məharətlə vəsf etdiyi türkün igid oğullarının qəhrəmanlıq rəşadətini, bahadırlıq şücaətini də həmin kontekstdə verir. Xaqani div vücudlu, əjdaha görkəmli yenilməz pəhləvanların alp-ərənlik xüsusiyyətlərini bilavasitə fiziki təkmilləşmədə axtarır. O, Şirvanşah Mənçöhr ibn Firiduna həsr etdiyi şeirdə onu xoş əməllər sahibi kimi adil bir hökmdar, dərin ağıl, kamal mücəmməsi və böyük səxavətini tərənnüm etməklə yanaşı, Şirvanşah xaqanının həm də pəhləvan cüssəli, qoçaq və igid sultan olduğunu da vəsf edir:

O elə bir padşahdır, mələk tək şüarı var,
Ancaq döyüş meydanında o qızmış aslan olar.

O, iqlimlər bağışlayan yeganə bir sultandır,
O yenilməz bir Rüstəmdir, fəth etdiyi Turandır (3, 28).

Şair qəzəlləri içərisində kaman çəkmək, ox atmaq, nişangahı sərrast tuşlamaq və s. kimi fiziki təmrinlərdən bədii ifadə vasitəsi kimi məharətlə istifadə etmişdir.

De, bu hicran davasında kaman çəkib, kim ox atdı,
Bu döyüşə girmək üçün lütf edib bir kəhər göndər
(3, 262).

Böyük sənətkarın poeziyasında onun işıqlı ictimai-fəlsəfi fikirləri tam aydınlığı ilə göstərilir. Onun xarakter bütövlüyü, əzmkarlığı bir ayna kimi başqalarının qarşısında açılsa da, bunu şairin özündən savayı görən yoxdur. Xanənişin həyat tərzi keçirən şair dövrün eybəcərliklərinə qarşı yüksək əzmlə mübarizə aparmış «Vəhşi divlər önündə Rüstəm-Zal qüvvətim var» deyərək özünün inadkar, qətiyyətli, dönməz və mətin iradə sahibi olduğunu bir daha bəyan edir.

Xaqani Şirvani dövrünün dünya görmüş, təbabət, nücum, məntiq, ədəbiyyat və b. elmlərdən xəbərdar olan əmisi Ömər Osman oğlu Kafiyəddinin rəhbərliyi altında mükəmməl təhsil alaraq böyük bir elmi məktəb keçmişdir. Ömər Osman oğlu Məlhəm tibb akademiyasının yaradıcılarından biri olmuşdur. Və heç təsadüfi deyildir ki, Xaqaninin əsərlərində təbiət, insan anatomiyası və fiziologiyası, habelə xəstəliyin şəfa yolları və s. barədə qiymətli bilgilərin mənimsənilməsində belə bir mötəbər tibb məktəbinin banisi olan əmisinin dərin təsiri olmasın. Odur ki, şair «Tövfətül-İraqeyn» adlı poemasında «Əmisi haqqında»kı şerində həmin fikri belə açıqlayır:

Mən təbib əmimdən almışam ilham,
Odur, söz mülkünün bir Sokratıyam.
Ağlım pay almışdır min bir dənizdən,
Tanışam hər atla Qaf dağında mən (3, 63).

deyən şair tibb sahəsindəki mükəmməl biliyi ilə öyünür və özünü qədim dünyanın dahi həkimi, antik təbabətin banisi Hippokrata bənzədir. Xaqani yazırdı ki, təbibə filosof olmaq vacib deyilsə də, filosofa təbib olmaq zəruridir.

Xalqımızın böyük söz bahadırı, klassik poeziyamızın iftixarlarından olan Xaqani yaradıcılığında ictimai-fəlsəfi, təbiət təsvirləri, məhəbbət mövzusu və s. kimi çoxşaxəli, həm də müxtəlif səpgidə mövzuları böyük ilhamla qələmə almış qəzəl, qəsidə, məsnəvi, rübai, həbsiyyə, mədhiyyə və s. müxtəlif şeir nümunələri içərisində idman, turizm və səyahətlər, stolüstü oyunlar, habelə milli-xalq idman oyunları və əyləncələrə də xüsusi yer ayırmışdır.

Şair XII əsrdə çoxsaylı xarici işğalçılara, habelə yerli istilaçılara qarşı toqquşma və müharibələrdə düşmən ordusuna dov gəlmək, müxtəlif həmlələrin uğurlu nəticələrinə nail olmaq niyyəti ilə, xalqın hər bir cavanmərd övladından fiziki tərbiyənin ox atmaq, at çapmaq, qılınc oynatmaq, nizə tullamaq, əlbəyaxa döyüş, güləş və s. kimi növləri kamil bilməsini zəruri hal sayılırdı. Professor İ.A.Mollayevin təbircə desək, Xaqani «qəflətdən qalxmaq üçün» fiziki kamillik kəsb etməyi də lazım bilirdi (1, 17).

Xaqani yaşadığı dövrün ictimai-siyasi zərurətindən irəli gələn, həmin zaman üçün daha spesifik xarakter daşıyan, xalqımızın yadellilərə qarşı apardığı aramsız çarpışmaların nəticəsi kimi dözümlü, çevik və fiziki hazırlıq baxımından güclü, basılmaz ərənlərin hazırlanması məcburiyyəti yaranırdı. Bu baxımdan qoçaq və mərd ərənlər tərbiyə olunmasına gözəl zəmin yaradan çovkan, qəpəq, cirid və s. kimi milli-xalq idman oyunlarının inkişafı həmin dövrdə geniş vüsət tapmışdır. Odur ki, böyük

sənətkarın yaradıcılığında çovkan oyununun adını tez-tez çəkməsi, habelə ondan bədii ifadə vasitəsi kimi – gözəl təşbih, mübaliğə, istiarə, təzad, cinas, kinayə və s. Olaraq məcaz şəklində həmin milli idman növlərindən istifadə etməsi təsadüfi deyildir.

Şair cıdır meydanlarında şahbaz atın yalmanına yatıb covlan eyləyən oğuz igidlərinin bu oyunda gözəl at səyirtmələri, at oynatmaları, atçapma qabiliyyətləri tələb edirdisə də, onların burulmaz qollarındakı, bükülməz dizlərindəki güc, qüvvə, çeviklik və sürətlilik kimi fiziki keyfiyyətləri qələbə üçün əsas şərt sayırdı. Xaqani beyitlərinin birində əqli yetkinliklə fiziki kamilliyin birgə əlaqəsini, onların vəhdətdə təminini fəlsəfi müstəvidə götürərək yazır:

Azadlıq meydanında at çapdırmaq könlünə düşsə,
Kosu-amal olar, əqlin ayağı – əldə çovqanı (3, 7).

Bənzərsiz söz cahangiri özünün «Meratos səfa» əsərində oyunların xalq tərəfindən yaradıldığını və bu oyunlarda məhz xalq nümayəndələrinin iştirak etdiklərini göstərmişdir. Xaqani yazırdı ki, əgər azad yaşamaq istəyirsənsə, tamahın və arzunun başını top, ağlın ayağını da topu vuran çovkan et. Yəni azadlıq və xoşbəxtlik istəyən adam ehtirasları deyil, ağlını özünə rəhbər etməlidir.

Xaqani yaşadığı dövrdə Azərbaycanda geniş vüsət tapmış şahmat oyunu barədə də söhbət açır, habelə yaradıcılığından da bəlli olduğu və müasirlərinin qeyd etdiyi kimi o, bu oyunun əsl leylacı (oyunbazı) kimi müfəssəl bilgilər açıqlayır, həm də həmin oyunla bağlı şeirlərində şahmat xanələri və onun müxtəlif fiqurlarından bədii ifadə vasitəsi kimi böyük sənətkarlıqla istifadə edir. Şairə görə, istər şahmata aludə olan kəslər, istərsə də asudə vaxtının səmərəli təşkili məqsədilə əylənən şəxslərdə güclü erudisiya, çevik düşüncə, kəskin qətiyyətlilik, möhkəm iradi səy, mütəşəkkillik, intizamlılıq və s. kimi əqli, mənəvi-əxlaqi, etik keyfiyyətlər cilalayır. Xaqani bu tarixi oyunlarda iştirak edən fiqurların hərəkəti ilə, insan psixologiyası arasında gözəl paralellər qurmuşdur: «Bu gün qəlbim piyadədir (şahmat), çalış o yeddi biyabanı (şahmat taxtasının «piyadə» qarşısında duran yeddi xanəsi) başa vur və dönüb fərzin (şahmat-fərz) ol. Burada, Xaqaninin yüksək intellekt sahibi və humanist bir şəxsiyyət olaraq mədəni zövqə qadirliyi, habelə şahmatın Azərbaycanda çox qədim tarixə malik əvəzsiz mənəvi dəyər kimi bu gün də təhəvvülata uğramadığı anlaşılır.

Şair «fərzin olub çəp hərəkət etməkdənsə, piyadə olub düz irəliləməyi» məsləhət görərək, özünə munis olan insanlarda qürur, ləyaqət, mənlik, mərdanəlik kimi insan mənəviyyatını ucaldan əxlaqi, bəşəri əməllərə sadiq qalmağı məzlum xalqına dönə-dönə tövsiyə edirdi:

Bir piyada olub düz getmək xoşdur
Bir vəzir olub da əyri getməkdən (3, 283).

Xaqani «Mədain xərabələri» şeirində zəmanənin gərdişi dövranından, vaxtilə abad, gülşad məkanların, cah-calallı məskənlərin, zülmkar, əzazil xaqanların, rəzil, müxənnəs şahların tapdağından viranələrə çevrilməsini, sonradan həmin fatehlərin özlərinin də faciəli aqibətini şahmata istinadən belə təsvir edir:

Atdan yerə en, üz sürt torpağına, seyr elə,
Fil pəncəsi altında şahkan mat olub Neman.
Yox filləri Neman tər torpağa salan şahlar,
Fil kimi gecə-gündüz onları əzər dövran?!
Təqdirə baxın, bir vaxt fili aciz edən şahlar,
Şahmatda qalıbdır mat bir fil kimi sərgərdan (3, 170)!

Xaqaniyə görə, şahmat insana məntiqi dəlillər, sərrast fikirlər, dəmir dözüm, habelə düzgün və ayıq düşünməyə xidmət edən mənəvi bir dəyərdir.

Xaqani yaradıcılığında orta əsrlər Azərbaycan mühitində bütün Şərq ölkələrində ən çox yayılmış stolüstü idman oyunlarından olan nərd barədə də müxtəsər söhbət açır. Məsələn, şair «Müvəffəqəddin Əbdülqəffarın tərifi» adlı şerində həyatda şərəflə yaşamağın, ləyaqətlə ömür sürməyin, mərdanə davranmağın ucalığından bəhs edərək, çoxüzlü riyakar, müxənnət və bədnam kəsləri nərdin dəyişkən zərinin üzlərinə bənzədir:

Kəbəyə üz çevir, boş şeydən əl çək;
Altıüzlü olma nərdin zəri tək (3, 84)!

Yaxud, şair həmin silsilədən olan digər bir şerində nərd oyununu gözəl təşbihə çevirir:

Fələyin nöqtəsiz olur zərləri,
O nərddə udmuşdur çox hərifləri.
Pəncü-yek oynamış yenə də fələk
Ki, da şeş atana hesablar do-yek (3, 110).

Xaqani «Töhfətül-İrqeyn» əsərində Şamaxı şəhərindən başlamış Yaxın və Orta Şərqin bir sıra məmləkətlərinə səmt götürərək tənəzzöh və gəzintilərə çıxmış, canlı ekskursiya səyahətini təmin etmişdir. Şair həmin səfərlər boyu çaylar, dənizlər, səhra və dağlar aşır. Şübhəsiz ki, belə uzunmüddətli və genişmiqyaslı gəzinti və tənəzzöhün öhdəsindən gəlmək, bir sıra mane və çətinlikləri dəf etmək hər bir insandan ciddi fiziki sağlamlıq və iradi güc tələb edə bilərdi. Şair yüksək fiziki hazırlıq və hərəki keyfiyyətlər tələb edən həmin səfərləri «Səfər təfsilatı» adlı şerində belə tərənnüm edir:

Səfərə çıxaraq, dağda, səhrada
Sürdüm özümü özüm piyada.
Şirvan dənizindən uzağa getdim,
Arzuma çatmaqçün İraqa getdim;
Qara dəniz qaldı mənim arxamda,
Səfidrud çayını keçdim bir anda;
Kuhistana çatıb gördüm, nəhayət,
Behişt bağlarıtək yeddi vilayət (3, 72).

Azman şairimiz ekskursiya, gəzinti, turizm, tənəzzöh və s. kimi səyahət növlərini məşhur adamların, görkəmli şəxsiyyətlərin həyatının tarixən bəzəyi olduğunu qeyd edir. Xaqani xalqımızın çox ulu bir «Çox gəzən çox bilər, çox yaşayan yox» atalar sözünü sanki bənzətmə şəklində bildirir. Odur ki, şair fiziki hərəkətlərə - səyahət və piyada gəzintilərə yüksək dəyər verməklə sələflərinə sağlamlıq, gümrahlıq rəhni, həm də sağlam həyat tərzinə yardımçı olan vacib bir məsələ kimi diqqət yetirməyi özünə borc bilirdi:

Çox səfər eylədin, əl çək göylərdən,
Bir az da gəz, dolaş bu yerləri sən.
Xüsusən, səyahət, dünyanı gəzmək
Böyük adamlara olmuşdur bəzək (3, 86).

Dahi şairimizin səyahətlərə dərin marağı barədə onun cəfakeş tədqiqatçılarından professor M.Quluzadənin araşdırmalarındakı bilgilər Xaqaninin Yaxın və Orta Şərqin bir sıra ərazilərindəki geniş miqyaslı gəzintilərdən aldığı dərin təəssüratların onun sanballı yaradıcılığına zəmin yaratmasını vurğulayır: «Xaqani dövrünün yalnız bir şairi deyil, həm də görkəmli səyyahı idi. … Xaqani dörd dəfə İrana səyahət etmiş

(1151, 1156, 1171, 1173), iki dəfə ərəb ölkələrini gəzmiş (1156, 1173), İranın, İraqın, Suriyanın, Ərəbistan yarımadasının onlarca şəhərlərini dolaşmış, Sasani şahlarının paytaxtı Mədain xərabəliklərində olmuşdur. O, səyahətlərdən aldığı təəssüratları öz şerlərində əks etdirdi. Beləliklə, o, 1156-cı il səyahətinin nəticəsində «Töhfətül-İraqeyn» («İki İraqı töhfəsi») poemasını yaratmışdır. Başqa şerlərində Xaqani sonsuz hərarətlə Azərbaycanın təbiət gözəlliklərindən söz açır, Şirvana, Bakıya, Xəzər dənizinə coşğun sətirlər həsr edir» (2, 7).

Həyatda səyahət və gəzintilərə böyük üstünlük verən şair Yaxın və Orta Şərqin bir çox şəhərlərini addımbaaddım gəzib dolaşmış, topladığı zəngin elmi müşahidələri onun dünyagörüşünün genişlənməsinə, habelə ensiklopedik alim kimi yetkinləşməsinə böyük təsir göstərmişdir. Heç şübhəsiz ki, belə uzunmüddətli, geniş məsafəli gəzinti və səyahətlər şairin fiziki möhkəmliyinə, mütəhərrikliyinə və sağlamlığına müsbət təsiri sayəsində xeyli ömür yaşamasına zəmin yaratmışdır.

Xaqaniyə səyahət etmək, müxtəlif ölkə və şəhərləri gəzib dolanmaq xüsusi zövq verərdi. Şair 36 yaşında olarkən səyahətə çıxır, Həmədan, Ərdəbil, Şam, Mosul, Bağdad, İsfahan, Məkkə şəhərlərini gəzir və bir neçə ildən sonra səyahətini başa vurub, doğma vətəninə qayıdır.

Şairin səyahətləri barədə müfəssəl bilgilərə professor N.K.Kərəmovun qeydlərində rast gəlirik: «Xaqani Məkkədən qayıdarkən Mədinə, Təbuk, Amman, Şam, Deyrəzor, Tell-Əffar, Mosul, Məhabad, Marağa şəhərlərindən keçərək Təbrizə gəlmişdir. Burada bir qədər dincəldikdən sonra Mərənd, Culfa, Qaryagindən keçərək Şamaxıya qayıtmışdır» (4, 34).

Böyük mütəfəkkirin «Töhfətül-İraqeyi» mənzum səyahətnaməsi Azərbaycan ədəbiyyatında ilk poemalardandır. Əsərdə verilən mənalı hekayələr, hikmətli söz və ifadələr, onun təsir qüvvəsini artırır. Şair həmin dərin fəlsəfi məzmunlu əsərini uzunmüddətli səyahətdən sonra yazmışdır. Burada səyahət xatirələri əsas yer tutur. Xaqani gəzdiyi şəhərlərdən, rast gəldiyi görkəmli adamlardan bəhs edir, atasını, anasını, dost və düşmənlərini xatırlayır. Günəşə üz tutaraq dərdlərini danışır, kainatda hər şeydən uca, ali olan günəşdən kömək istəyir…

## ƏDƏBİYYAT


1. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı: Maarif, 1996, 304 s.
2. Хагани Ширвани. Избранные произведения. Баку: Азернешр, 1959, 240 с.
3. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 2008, 322 s.
4. Kərəmov N.K. Odlar yurdunun səyyah və coğrafşünasları. Bakı: Azərnəşr, 2004, 206 s.
5. Səfərli Ə.Q., Yusifov X.H. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 2008, 632 s.


## ХАГАНИ О ФИЗИЧЕСКОМ СОВЕРШЕНСТВЕ


**МОБИЛЬ АСЛАНЛЫ ГУНТЮРК**


## РЕЗЮМЕ


Статья посвящена вопросам физического воспитания, физической зрелости и физически-телесного совершенства, содержащихся в жизни и деятельности великого азербайджанского поэта Хагани Ширвани.

Особое внимание уделяется раскрытию идей об огромном значении использований таких национальных спортивных игр, как човкан, шахматы и нарды, а так же туризма и экскурсий для формирования физически развитого поколения.

## KHAGANI – ABOUT PHYSICAL PERFECTION

**MOBIL ASLANLI HUNTURK**

**SUMMARY**

The article is devoted to the problems of physical training, physical perfection and physical-corporal mature in the life and creative work of the great Azerbaijanian poet Khagani Shirvani.

In the works of the great master much attention is paid to the national sport games, like chovkan, chess and backgammon. The importance of tourism and traveling in the upbringing and development of generation is marked in the article.